UOT 902

# QARABAĞ BÖLGƏSİNİN İLK ORTA ƏSR ŞƏHƏRLƏRİNİN QURULUŞU HAQQINDA

***Cavid Vəkil oğlu Bağırzadə***
***Gəncə Dövlət Universiteti***
***cavid.bagirzade@gdu.edu.az***

**Açar sözlər:** *Albaniya, Qarabağ, Tsri şəhəri, Aluen şəhəri, Bərdə şəhəri, Kaqankat, Bərdəkür.*

*Albaniyanın, o cümlədən də onun mərkəzi vilayətlərinin yerləşdiyi Qarabağ bölgəsinin ilk orta əsr şəhərlərinin sosial-siyasi quruluşu haqqında "Albaniya tarixi"ndə məlumatlara rast gəlinir. Moisey Kalankatuklunun verdiyi məlumatlardan aydın olur ki, Albaniya şəhərləri yerli hakimlər tərəfindən idarə olunurdu. Maraqlı cəhət ondan ibarətdir ki, Moisey Kalanklatuklu böyük şəhərlərdən bəhs edərkən onların vali (hakim) tərəfindən, kiçik şəhərlərdən bəhs edərkən isə bu şəhərlərin oranın qəbilə başçıları, başqa sözlə, şəhər əhalisinin, şəhər icmasının başçısı tərəfindən idarə olunduğunu göstərmişdir. Albaniya şəhərlərinin idarəetmə aparatı haqqında məlumatlara "Albaniya tarixi"ndə Aluen kilsə məclisindən bəhs edilən fəsildə də rast gəlinməkdədir. Belə ki, Aluen kilsə məclisinə dəvət alıb iştirak edənlərin daşıdıqları vəzifələr göstərilmişdir.*

*Moisey Kalankatuklunun verdiyi məlumatlara ilk orta əsrlər dövründə Albaniya şəhərlərində şəhər yığıncaqları adlanan toplanışlar keçirilirdi. Bütün şəhər əhalisinin iştirak etdiyi həmin yığıncaqlar ciddi siyasi məsələlər haqqında qərar çıxarırdı. Alban tarixçisinin verdiyi məlumatlara görə ilk orta əsr Albaniya şəhərlərini yerli hakimlər idarə edirdilər.*

*Azərbaycanın digər bölgələrinin ilk orta əsr şəhərləri kimi Qarabağ bölgəsinin də ilk orta əsr şəhərləri arxeoloji tədqiqatlardan məlum olduğu kimi, başlıca olaraq iki hissədən – içqala (narınqala) və bayırqaladan (şəhristandan) ibarət olmuşdur. Azərbaycanın ilk orta əsr şəhərləri haqqında bəhs etmiş tədqiqatçılar onları əsasən üç kateqoriyaya bölmüşdür: 1. ticarət-sənaye mərkəzi olan, beynəlxalq tranzit ticarət yollarının üzərində yerləşən şəhərlər. 2. əsas ticarət yollarından uzaqda yerləşən qapalı sənətkarlıq və ticarət mərkəzi olan şəhərlər. 3. Kəndtipli, yəni əkinçilik xarakterli, feodal vilayətlərinin inzibati mərkəzi olan şəhərlər.*

## CONCERNING THE STRUCTURE OF EARLY MEDIEVAL TOWNS OF THE GARABAGH REGION

***Javid Baghirzade***

**Key words:** *Albania, Garabagh, Tsri city, Aluen city, Barda city, Kagankat, Bardakur.*

*Data on the social and political device of Albania, including about early medieval towns of the Garabagh region where its central provinces were located meet in "History of Albania". According to Moisey Kalankatuklu's data, local governors ran the cities of Albania. Interesting the fact that Moisey Kalankatuklu telling about the large cities, notes that governors ran the cities, and towns local heads of tribes, otherwise, the head of city community ruled. Besides information of rather administrative personnel of the Albanian cities, contains in "History of Albania" also in chapter about the Albanian church. For example, positions invited to Aluyen cathedral are specified.*

*According to Moisey Kalankatuklu, in the period of the early Middle Ages in the cities of Albania city meetings were held. The same meetings in which all people of the city took part decided about serious political issues. According to the information of the Albanian's historian the local judges ruled the cities of Albania in the early Middle Ages.*

*As well as medieval towns of other regions of Azerbaijan, early medieval towns of the Garabagh region as show archaeological researches, consisted generally of two parts – the internal fortress (narynkala) and external fortress (shehristhan).The researchers narrating about the early medieval towns of Azerbaijan divide them into three categories: 1.The cities which are commerce and industry centers and located on the international transit trade ways. 2.The cities, the closed craft and shopping centers lying far from the main trade ways. 3.Cities, rural type i.e. agricultural, administrative centers of feudal provinces.*

## ОТНОСИТЕЛЬНО СТРОЕНИЯ РАННИХ СРЕДНЕВЕКОВЫХ ГОРОДОВ КАРАБАХСКОЙ ОБЛАСТИ

***Джавид Багирзаде***

**Ключевые слова:** *Албания, Карабах, город Цри, город Алуен, город Барда, Каганкат, Бардакур.*

*Данные относительно общественно-политического устройства Албании, в том числе о ранних средневековых городах Карабахской области, где были расположены ее центральные провинции встречаются в «Истории Албании». Согласно сведениям Моисея Каланкатуклу, городами Албании управляли местные правители. Интересно то, что Моисей Каланкатуклу рассказывая о крупных городах, отмечает, что городами управляли правители (губернаторы), а небольшими городами правили местные руководители племен, иными словами, глава городского сообщества. Кроме этого информация относительно управленческого аппарата албанских городов, содержится в «Истории Албании» такжев главе об албанской церкви. Например, указываются должности приглашенных на Алуенский собор.*

*По словам Моисея Каланкатуклу, в период раннего средневековья в городах Албании проводились городские собрания. Эти собрания, на которых присутствовал весь город, принимали серьезные политические решения.*

*Как и средневековые города других регионов Азербайджана, ранние средневековые города Карабахской области, как показывают археологические исследования, состояли в основном из двух частей – внутренняя крепость (нарынкала) и внешняя крепость (шехристан). Исследователи, повествующие о ранних средневековых городах Азербайджана, делят их на три категории: 1.Города, являющиеся торгово-промышленным центрами, расположенные на международных транзитных торговых путях. 2.Города, закрытые ремесленные и торговые центры, лежащие вдали от основных торговых путей. 3.Города, сельского типа т.е. сельскохозяйственные, административные центры феодальных провинций.*

**Giriş.** Qafqaz Albaniyasında feodal münasibətlərinin meydana gəlməsi və inkişaf etməsi nəticəsində bu dövrdə şəhər mədəniyyətinin çiçəklənməsi prosesi baş vermişdir. Bu zaman ölkənin ayrı-ayrı vilayətlərində yeni şəhərlərin formalaşmışdır. Buna görədir ki, yazılı qaynaqlarda ilk orta əsrlər dövrünə aid çoxlu sayda yaşayış məntəqələrinin, o cümlədən də şəhərlərin adları çəkilir. İlk orta əsrlər dövründə Albaniyanın şəhər mədəniyyətinin inkişaf etdiyi bölgələrindən biri də Qarabağ bölgəsidir. Qarabağ bölgəsi Albaniyanın tarixi Arsak vilayətini və Mərkəzi Utini əhatə etmişdir. Albaniya şəhərlərinin müəyyən edilmiş plana uyğun quruluşu vardır. İlk orta əsrlər dövründə Azərbaycan şəhərlərinin ümumi quruluşu ilə yanaşı, bəzi fərqlilikləri də vardır. Bu fərqliliklər şəhərlərin coğrafi mövqeyindən, onun yerləşdiyi ərazinin relyefindən, həmçinin iqtisadi və inzibati rolundan ibarət idi. Qafqaz

Albaniyasının həm antik dövr, həm də ilk orta əsr şəhərlərinin öyrənilməsi tədqiqatçıların diqqət mərkəzində olmuşdur.

Yazılı mənbələrin verdiyi məlumatlara görə, eləcə də aparılmış tarixi-arxeoloji tədqiqatlara görə Qarabağ ərazisində çoxlu sayda şəhər və şəhərtipli yaşayış yerlərinin mövcud olması ilə yanaşı, bu bölgədə ilk orta əsrlər dövründə bir çox mühüm tarixi-siyasi hadisələr baş vermişdir. Albaniyada xristianlığın ilk təşəkkül tapdığı, möhkəmləndiyi bölgələrdən biri də Qarabağ ərazisi olmuşdur. Qarabağ bölgəsində ilk orta əsrlər dövründə mövcud olmuş şəhərlər eyni zamanda dini mərkəz rolunu oynamışdır. Bu dövrdə Bərdə şəhəri Alban katolikosluğunun mərkəzi idisə, bölgədəki şəhərlərdən Aluen, Amaras, Tsri (Sri), Kaqankat (Kalankatuk), Bərdəkür (Berdakur, Berdakan) yerarxiya və ya dini təhsil mərkəzləri, mədəni mərkəzlər olmuşlar. Məlumdur ki, Bərdə şəhərindən sonra Alban katolikosluğunun mərkəzi əvvəllər katolikosluğun yay iqamətgahı olmuş, Tərtərçay vadisində yerləşən Bərdəkür şəhərinə köçürülmüşdür. Qafqaz Albaniyasının yazılı mənbələrdə adı çəkilmiş ilk orta əsr Bərdəkür şəhəri arxeoloji ədəbiyyatda yerli əhalinin adlandırdığı kimi "Ana şəhər" adı ilə əksini tapmış şəhər xarabalığında lokallaşdırılmışdır [1, s.63-67].

Çoxlu sayda tarixi-arxeoloji tədqiqatların aparılmasına baxmayaraq Albaniyanın ilk orta əsr şəhərlərinin öyrənilməsi məsələsi elmi aktuallığını saxlayır. Bura adları yazılı mənbələrdə çəkilmiş şəhərlərin yerlərinin müəyyən edilməsi, onların tarixi-arxeoloji tədqiqinin həyata keçirilməsi, o cümlədən də şəhərlərin quruluşu məsələsini aid etmək olar.

**Şəhərlərin quruluşu haqqında.** Azərbaycanın digər bölgələrinin ilk orta əsr şəhərləri kimi Qarabağ bölgəsinin də ilk orta əsr şəhərləri arxeoloji tədqiqatlardan məlum olduğu kimi, başlıca olaraq iki hissədən – içqala (narınqala) və bayırqaladan (şəhristandan) ibarət olmuşdur.

Azərbaycanın ilk orta əsr şəhərləri haqqında bəhs edərkən Z.M.Bünyadov onları əsasən üç kateqoriyaya bölmüşdür: 1. ticarət-sənaye mərkəzi olan, beynəlxalq tranzit ticarət yollarının üzərində yerləşən şəhərlər. 2. əsas ticarət yollarından uzaqda yerləşən qapalı sənətkarlıq və ticarət mərkəzi olan şəhərlər. 3. Kəndtipli, yəni əkinçilik xarakterli, feodal vilayətlərinin inzibati mərkəzi olan şəhərlər [2, s.164-165]. Albanşünas F.C.Məmmədova da həm Moisey Kalankatuklunun verdiyi məlumatlara istinad edərək, həm də Z.M.Bünyadovun göstərdiyimiz təhlilinə əsaslanaraq ilk orta əsr şəhərlərini eynilə üç kateqoriyaya bölmüşdür [4, s.151-152]. Qafqaz Albaniyasının ilk orta əsrlər dövrünün tədqiqatçısı T.M.Məmmədov da Albaniyanın ilk orta əsr şəhərləri haqqında bəhs edərkən onları üç qrupa bölmüşdür [5, s.127]. Albaniyanın ilk orta əsrlər dövründə ölkənin mühüm mərkəzi olmuş Qarabağ bölgəsinin müxtəlif yerlərində olan şəhərləri də bu kateqoriya üzrə qruplaşdırmaq olar.

Albaniyada ilk orta əsrlər şəhərlərin, şəhərtipli yaşayış məntəqələrinin artdığı dövr kimi xarakterizə olunur. Bu dövrdə köhnə şəhərlərin inkişafı ilə yanaşı, yeni şəhərlərin salınması və şəhər həyatının canlanması prosesi gedirdi [4, s.151]. Albaniyada ilk orta əsrlərdə şəhər mədəniyyətinin çiçəkləndiyi, yeni feodal şəhərlərinin yarandığı əsas bölgə məhz Qarabağ ərazisi olmuşdur. Bunun bir çox səbəbləri vardır ki, onları belə qruplaşdırmaq olar: **1.** Qarabağ bölgəsi ilk orta əsrlər dövründə ölkənin siyasi-inzibati mərkəzi olduğundan buradakı mövcud iqtisadi və siyasi vəziyyət yeni şəhərlərin yaranmasına zəmin yaratmışdır; **2.** Qarabağ bölgəsində yeni şəhərlərin meydana gəlməsi eyni zamanda dini amillərlə də bağlı olmuşdur. Belə ki, xristian müqəddəslərin dəfn olunduğu yaşayış məntəqələri sonralar əhalinin artması və dini mərkəzə çevrilməsi nəticəsində şəhərə çevrilmişdir; **3.** Bərdə şəhərinin paytaxt olmasından irəli gələrək Qarabağ bölgəsindən keçən beynəlxalq tranzit ticarət yolları üzərində, həmçinin ona yaxın yerlərdə bir neçə yaşayış məntəqəsi inkişaf edərək, şəhərə çevrilmişdir. Buna misal olaraq Aluen, Bərdəkür, Kaqankat kimi şəhərləri göstərmək olar. Bütün bu göstərilən proseslər ilk orta əsrlər dövründə Qarabağ bölgəsində daha qabarıq surətdə baş vermişdir.

Albaniyada ilk orta əsrlər dövründə yeni şəhərlərin yaranması prosesini F.C.Məmmədova təhlil edərək, belə bir nəticəyə gəlmişdir ki, feodal münasibətlərinin güclü siyasi mərkəzi hakimiyyəti şəraitində inkişaf edən Albaniyada şəhərlərin yaranması və möhkəmlənməsinə ehtiyac duyulduğundan, mərkəzi hökumət şəhərlərin təşəkkül tapmasına şərait yaradırdı. Çünki mərkəzi hökumət feodallarla mübarizədə onlardan bəhrələnirdi. Yenidən feodallaşan zadəganlarda da bağışlanan torpaqları mənimsəmək marağı yaranırdı ki, bu da şəhər həyatının çiçəklənməsinə, köhnə şəhərlərin dirçəlməsinə və yenilərinin meydana gəlməsinə səbəb olurdu [4, s.151].

Albaniyanın, o cümlədən də onun mərkəzi vilayətlərinin yerləşdiyi Qarabağ bölgəsinin ilk orta əsr şəhərlərinin sosial-siyasi quruluşu haqqında "Albaniya tarixi"ndə məlumatlara rast gəlinir. Moisey Kalankatuklunun verdiyi məlumatlardan aydın olur ki, Albaniya şəhərləri yerli hakimlər tərəfindən idarə olunurdu. Maraqlı cəhət ondan ibarətdir ki, Moisey Kalanklatuklu böyük şəhərlərdən bəhs edərkən onların vali (hakim) tərəfindən, kiçik şəhərlərdən bəhs edərkən isə bu şəhərlərin oranın qəbilə başçıları, başqa sözlə, şəhər əhalisinin, şəhər icmasının başçısı tərəfindən idarə olunduğunu göstərmişdir. Moisey Kalankatuklu Tsri şəhərindən bəhs edərkən hakim sülalədən olan, iri feodal (Alban nahararı) Xoçkorikin bu şəhərin valisi olduğunu göstərir [M.Kalankatuklu, I, 26]. Kaqankat şəhərindən bəhs edilərkən Bakur adlı şəxsin buranın qəbilə başçısı olduğu qeyd edilir [M.Kalankatuklu, I, 33].

Albaniya şəhərlərinin idarəetmə aparatı haqqında məlumatlara "Albaniya tarixi"ndə Aluen kilsə məclisindən bəhs edilən fəsildə də rast gəlinməkdədir. Belə ki, Aluen kilsə məclisinə dəvət alıb iştirak edənlərin

daşıdıqları vəzifələr göstərilir [M.Kalankatuklu, I, 33]. Moisey Kalankatuklu Aluen kilsə məclisində iştirak edənlərin sırasında Arsak vilayətinin əyan və qəbilə başçıları ifadəsi işlətmişdir. Belə hesab etmək olar ki, qəbilə başçısı adı altında şəhər icmasının başçısı ifadə olunmuşdur.

Moisey Kalankatuklunun verdiyi məlumatlara görə, ilk orta əsrlər dövründə Albaniya şəhərlərində şəhər yığıncaqları adlanan toplantılar keçirilirdi. Bütün şəhər əhalisinin iştirak etdiyi həmin yığıncaqlar ciddi siyasi məsələlər haqqında qərar çıxarırdı [4, s.152]. Alban tarixçisinin verdiyi məlumatlara görə ilk orta əsr Albaniya şəhərlərini yerli hakimlər idarə edirdilər [5, s.127].

Belə görünür ki, Bərdə şəhəri paytaxt kimi yuxarıda göstərilən kateqoriyaya görə birinci qrup şəhərlərin əvvəlincusu olmuşdur. Ayniana-Yunan, Tsri şəhərlərini də bu qrupa aid etmək olar. Kaqankat, Matris, Bərdəkür kimi şəhərlər beynəlxalq ticarət-karvan yolunun üzərində yerləmişdi. Aluen və Bərdəkür şəhərləri eyni zamanda hökmdar və əyanların yay iqamətgahları olmuşdur. Yazılı mənbələrin verdiyi məlumatlara görə Bərdəkür şəhəri Alban katolikosluğunun əvvəllər yay, sonralar isə daimi mərkəzi olmuşdur.

Albaniyanın, o cümlədən də Qarabağ ərazisində yerləşən ilk orta əsr şəhərləri bir qayda olaraq qala hasarları ilə əhatə olunmuşdur. Şəhərlərin ətrafına çəkilən hasar və bürclərin qalıqları aydın şəkildə göstərir ki, şəhərlər güclü müdafiə sistemi təşkil etmişdir. Qala hasarları və bürcləri bir qayda olaraq həmişə mağzallı və bacalı olmuşdur ki, bu da şəhərlərin xaricdən edilən hücumlardan müdafiəsinin gücləndirilməsinə xidmət etmişdir. Şəhərlərin içqalası (narınqala) da hündür, mağzallı və bürcləri olan qala hasarları ilə dövrələnmiş formada tikilmişdir. Bu da şəhərlərin ikiqat müdafiə sisteminə malik olduğunu göstərir.

Şəhərlərin narınqala hissəsi bir qayda olaraq şəhər ərazisinin ən yaxşı, müdafiə baxımından ən əlverişli yerində tikilirdi. Şəhərlərin narınqalasının tikililəri, su təhcizatı, kanalizasiya sistemi digər sahələrdən əsaslı surətdə fərqlənirdi. Şəhərlərin şəhristan hissəsində əsasən sənətkarlar və tacirlər yaşayırdı. Yaşayış evləri ilə yanaşı şəhristanda bazarlar, karvansaraylar, hamamlar, müxtəlif sənət emalatxanaları, ictimai binalar yerləşirdi. Şəhərlərin belə bir quruluşa malik olması onun inzibati və sosial xarakterindən irəli gəlirdi [3, s.124]. Qarabağ bölgəsindəki ilk orta əsr şəhər yerlərində aparılmış tədqiqatlar zamanı bu cəhətlər aydın şəkildə müşahidə olunmuşdur.

Albaniyanın ilk orta əsr şəhərlərini təhlil edən M.C.Xəlilov onları quruluşuna görə beş qrupa bölmüşdür: 1. Qala divarları ilə əhatə olunmuş bir hissəli şəhər yerləri (Qarabağ bölgəsindəki "Ana şəhər" – Bərdəkür bu tipə aid edilmişdir.). 2. Qala divarları ilə əhatə olunmuş iki hissəli şəhər yerləri. 3. Bir-birindən müəyyən məsafədə yerləşmiş iki hissəli şəhər yerləri. 4. İki müdafiə səddi arasında yerləşmiş narınqala və divarlarla müdafiə olunan şəhristandan

ibarət Dərbənd şəhəri. 5. Naqınqala və şəhristan hissələrindən ibarət şəhər yerləri (Amaras və Ağdam Govurqalası – Aluen şəhəri bu tipə aid edilmişdir) [8, s.169]. Şəhərlərin belə quruluşa malik olması şübhəsiz ki, ilk növbədə onların yerləşdiyi ərazinin relyefindən asılı olmuşdur.

Qarabağ bölgəsindəki ilk orta əsr şəhərlərinin əksəriyyəti bir qayda olaraq iki hissədən – narınqala və şəhristandan ibarət olmuşdur.

Moisey Kalankatuklu Bərdə şəhərini "böyük şəhər", "əzəmətli şəhər" "şəhər və qala" və s. kimi sözlərlə ifadə etmişdir. Xəzər xaqanı Cebu xaqanın oğlu ilə birlikdə Albaniyaya hücumundan bəhs edərkən Moisey Kalankatuklu Bərdə şəhərinin dörd qapısının – dörd şəhər darvazasının olması haqqında məlumat verir [M.Kalankatuklu, II, 10]. Şəhərin belə quruluşu ənənəvi ilk orta əsr Sasani şəhərlərinin quruluşu ilə oxşarlıq təşkil edir.

Bərdədə dörd darvazanın mövcudluğu düzənlikdəki digər Alban şəhər və qalaları kimi onun da qala divarlarının dördbucaqlı formada inşa edildiyini, hər bir divarda bir darvazanın olduğunu təsdiq etməyə imkan verir. Şəhərin dörd iri küçəsi "xaç"ın dörd qanadını əmələ gətirmişdir. Buna uyğun olaraq şəhərin hər biri iki küçə arasında yerləşən dörd iri məhəlləsi formalaşmışdır. Kəsişən küçələr düzbucaq əmələ gətirdiyi üçün həmin məhəllələr də düzbucaqlı sahədə qərar tutmuşdur. Güman etmək olar ki, "xaç"ın mərkəzində şəhərin baş meydanı yerləşmişdir. Hər bir küçənin bir ucu meydana, digər ucu müvafiq darvazaya çıxışı təmin etmişdir [8, s.166-167]. Ümumiyyətlə, şəhərlərin belə özünəməxsus fərqli xüsusiyyətlərə və quruluşa malik olması ilk növbədə onların yerləşdiyi ərazinin relyefi ilə bağlı olmuşdur. Şübhəsiz ki, başqa amillər də vardır.

İlk orta əsrlər dövründə Qarabağda ticarət geniş inkişaf etmişdi. Ümumdünya əhəmiyyətli ticarət yolları Cənubi Qafqaz ərazisindən keçirdi. Qarabağın şəhərləri Uzaq Şərqdən başlayaraq, Avropaya qədər keçən böyük "İpək yolu" ilə əlaqəli idi. Şəhər əhalisi Xəzər dənizi və Kür çayından keçməklə, Şərqin və Qərbin bir çox sənətkarlıq-ticarət mərkəzləri ilə əlaqə saxlayırdı. Qarabağdan müxtəlif sənətkarlıq məhsulları, yerli qurudulmuş meyvələr və s. aparılırdı. Qarabağın ikitərəfli, geniş ticarət əlaqələrini Azərbaycandan aşkar edilmiş Sasani, Bizans və digər dövlətlərin pulları da təsdiq edir [7, s.49].

**Nəticə.** Beləliklə, məlum olur ki, ilk orta əsrlər dövründə Albaniyada, o cümlədən də onun mərkəzi vilayətləri olan Arsak və Utidə şəhər mədəniyyəti çiçəklənmə dövrü keçirmiş, bölgədə yeni şəhərlər meydana gəlmişdir. Yeni şəhərlər feodalizmin inkişaf qanunauyğunluqlarının nəticəsi kimi deyil, həm də kiçik yaşayış məntəqəsinin dini mərkəzə çevrilməsi prosesində yaranmışdır. Buna Amaras şəhərini misal göstərmək olar. Aparılmış arxeoloji tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, Qarabağ bölgəsindəki ilk orta əsr şəhərləri böyük sahələri əhatə etmişdir.

## ƏDƏBİYYAT


1. Bağırzadə C.V. Qafqaz Albaniyasının ilk orta əsr Bərdəkür şəhərinin tarixi-arxeoloji tədqiqi haqqında. // AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, Azərbaycan Arxeologiyası və Etnoqrafiyası jurnalı, 2013, № 2., səh.63-67.
2. Bünyadov Z.M. Azərbaycan VII – IX əsrlərdə. Bakı, Şərq – Qərb Nəşriyyatı, 2007, 424 s.
3. Göyüşov R.B. Azərbaycan arxeologiyası. Bakı, İşıq nəşriyyatı, 1986, 186 s.
4. Məmmədova F.C. Azərbaycanın (Albaniyanın) siyasi tarixi və tarixi coğrafiyası. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1993, 262 s.
5. Məmmədov T.M. Qafqaz Albaniyası ilk orta əsrlərdə, Bakı, Təhsil, 2006, 400 s.
6. Moisey Kalankatuklu. Albaniya tarixi. Mxitar Qoş. Alban salnaməsi. (Müqəddimə, tərcümə, qeyd və şərhlər akademik Ziya Bünyadovundur.), Bakı, Elm, 1993, 270 s.
7. Hacıyev Q.Ə. Qarabağ tarixi (Dərs vəsaiti). Bakı, "Təknur" nəşriyyatı, 2014, 228 s.
8. Xəlilov M.C. Albaniyanın yaşayış yerləri (IV-X əsrlər), Bakı, Xəzər Universiteti nəşriyyatı, 2010, 284 s.